# BU MİLLƏTİN İLK ŞƏHİDİ SƏN OLDUN

1987-ci il oktyabrın 21-də Heydər Əliyev Qorbaçov komandasınm siyasətinə etiraz əlaməti olaraq siyasi büro üzvlüyündən istefa verdi. Bir neçə gün sonra isə Yerevanda Moskva ilə artıq razılaşdırılmış bədnam «Qarabağ məsələsi» - Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi məsələsi qaldırıldı. Bunun ardınca da azərbaycanlıların öz dədə-baba torpaqlarından kütləvi təmizləmə prosesi başlandı. İnsan hüquqları dəhşətli surətdə pozulur, Azərbaycan xalqına qarşı tammiqyaslı soyqırım siyasəti həyata keçirilirdi. Mixail Qorbaçov və onun ətrafı Heydər Əliyevin artıq təcrid olunmasmdan, demək olar ki, ev dustağına çevrilməsindən istifadə edərək Qarabağ məsələsinin həllini fəlakət həddinə çatdırdılar və bu da azmış kimi, sonda sülhsevər Azərbaycan xalqının başına misli görünməyən müsibətlər gətirərək 20 Yanvar faciəsini törətdilər. Bu faciəyə qarşı ilk etiraz səsini ucaldan, Azərbaycanın başına gələnləri bütün dünyaya car çəkən, rus imperiyasının iyrənc işğalçı siyasətini ifşa edən də məhz qeyrət simvolu Heydər Əliyev oldu.

Qüdrətindən düşmüşdülər təlaşa,
İşığından kor olmuşdu gözləri.
Qılıncları oynayırdı havada,
Səndərı sonra qul etməkçün bizləri.

Düşündülər, daşındılar yüz kərə,
Çox məqamda qurulmuşdu tələlər.
Nişangaha çevirdilər ölkəni,
Nələr çəkdi onda başın, eh, nələr!

İnam yeri güclü idi bu elin-
Sibirəcən sevilirdi soyadın.
Sən o iyrənc məmləkətdə gücünlə
Millətini sarsılmağa qoymadın.

Öz dilində dərs deyirdin onlara,
Siyasətdən xəbərsizdi naşılar.
Kim deyər ki, Qorbaçovun, Yazovun
Insanlığa xidmət edən başı var.

Birləşdilər yarasalar gizlicə,
Rəqib idin bu meydanda təkcə Sən.
Qərarları qəti oldu: təcili
Vəzifədən Sən götürülməlisən.

Örtə bilməz qara bulud Günəşi,
Həyat verən qüvvə heç vaxt basılmaz.
Bu millətin ilk şəhidi Sən oldun,
Şəhid ölmür, şəhidliyə yas olmaz!

***Valeh Mirzə***
***Azərbaycan dövlətçiliyinin qoşa qanadı. – B.: Təhsil, 2006. – S.334-335.***